# Qəbələ şairlərinin söz boxçası

## Düşüncələr

*Oldum bu dünyayla baş-başa,*
*Çətin ala bildin istəyimi.*
*Həyatım bəzən oxşadı qışa*
*İsidə bilmədim heç ürəyimi.*



*Bə-zən titrədim, bəzən duruxdum,*
*Enişli, yoxuşlu yollarında mən.*
*Arzuma çatmaq istəyimlə vurnuxdum,*
*Həmdəm oldun mənə, mübarizəm sən.*

*Gördüm dünyanın hər üzünü,*
*Eşitdim insanların yalanını, düzünü,*
*Dinləyirəm, həyat, de sözünü,*
*Qalacaqmısan belə aç üzünü!?*

*Olmayıbdır uşaqlığımda oyuncağım, velosipedim,*
*Böyüdüm mən kotançı qoynunda,*
*Gəzirəm indi toyotada, neyləyim?*
*Olmamış yenə də velosipedim uşaqlığımda.*

*Enişli-yoxuşlu yollara düşdüm,*
*Onlar heç də hamar olmadı.*
*Yaxşı yadımdadır, gəzməyə getdim,*
*Dondurma almağa pulum olmadı.*

*Qəlbimdən keçəni edə bilmədim.*
*Heç olmasa bir dəfə vətənə gəlim.*
*Sizi ancaq unuda bilmədim,*
*Həsrətlə sızladı ürəyim mənim.*

*Taleyim belə imiş, nədir faydası,*
*Küsüb inciyirəm özüm-özümdən.*
*Dərdimi söylədim, sanki ürək yarası,*
*Şikayətlənmə artıq keşməkeşli ömürdən.*

*Deyiləm artıq tələş keçmişimdən,*
*Keçibdir artıq həyata arzularım.*
*Həzz alıram nəvələrdən, nəticələrdən,*
*Fərəhdir, arxadır mənə övladlarım.*

*Bitib tükənməzdir sözlərim ancaq,*
*Gedirəm əvvəlki düz yolumu,*
*Əminəm irsim sizlərə qalacaq,*
*Çin eləyəcəksiniz bütün arzumu.*

*Bəsdir, Kamil, andın keçmişləri,*
*Neyləyim ürəyim doludur xatirələrlə.*
*Seçib onlardan ancaq nikbinləri,*
*Ötürmək istədim, bölüşdüm sizlərlə.*

## Kamil insan

*Ailəmdən mənə hədiyyə*

*Nə qədər doğmadır gülüşün sənin,*
*Bizimlə döyünür hər an ürəyin.*
*Ata, bu həyatda başqadır yerin*
*Daima isidir, ılıq nəfəsin.*

*Nurlu baxışınla ovundur bizi.*
*Unudaq bir yerdə kədərimizi.*
*Qorusun qoy tanrı ailəmizi.*
*Səninlə bölüşək sevincimizi.*

*Xalqına, yurduna sadiq olmusan,*
*Ey əvəzsiz sirdaş, ey Kamil insan.*
*Ötsə tez illər, keçsə də zaman,*
*Ruhumda duyulur cavanlıq hər an.*

*Ata, hər sözünün mənası dərin,*
*Zəhmətlə böyüdüb bizi əllərin,*
*Adını ucaldıb xoş əməllərin.*
*Yığışıb başına bax, əzizlərin.*

*Bir ömür sürürsən uca adınla,*
*Fədakar insan, müdrik bir sima.*
*Kamillik yazılıb ömür payına*
*Bizə sən dayaqsan, yaşa daima.*

*Kamil Məmmədov,*
*prezident təqüdçüsü*